# «Taxıl haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli, 370 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Taxıl haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli, 370 nömrəli Fərmanının icrasının təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

> 1.1. «Taxıl haqqında» Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsində, 9.2-ci maddəsinin ikinci cümləsində, 9.4-cü və 11.1-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;
>
> 1.2. həmin Qanunun 8.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir.

2. «Azərbaycan Respublikasının Taxıl Ehtiyatları üzrə Dövlət Agentliyinin ləğv olunması haqqında» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 dekabr tarixli, 59 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 12, maddə 773) 2-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 22 aprel 2008-ci il***

***№ 745***